

***COVID-19 pandemiyası özünü büruzə verdiyi ilk günlərdən Azərbaycan dövləti bu bəla ilə mübarizədə bütün zəruri tədbirləri həyata keçirməyə başladı, müvafiq strukturları koronavirus infeksiyasının geniş yayılmasının qarşısını almaq və insanların həyatını maksimum şəkildə qorumaq kimi vəzifələrə ciddi şəkildə yanaşmağa səslədi. Etiraf edək ki, bunun müsbət nəticəsi oldu. Belə ki, xüsusi karantin rejimi dövründə, sərt qadağalar şəraitində yoluxma hallarının sayı minimuma endirildi, ölkəmizdə ölüm halları çox aşağı səviyyədə qeydə alındı, xüsusi rejimli xəstəxanalarda müalicə olunaraq sağalanların sayı isə yeni yoluxma hallarının sayını kəskin üstələdi.***

# Polisin şərəfli adını və qürurlu fəaliyyətini yüksək qiymətləndirməliyik

Lakin təəssüf ki, ölkədə xüsusi karantin rejimi yumşaldılandan və sərt qadağalar aradan qaldırılandan sonra yoluxma hallarının sayında artım müşahidə edildi. Çünki yumşaldılma tədbirləri zamanı vətəndaşların böyük bir hissəsi tərəfindən müəyyənləşdirilən qaydalara və təcrid tövsiyələrinə riayət olunmadı. Bunun nəticəsində infeksiyaya yoluxanların sayı kəskin artdı. Beləliklə, hökumət pandemiya ilə mübarizəni yenidən sərtləşdirmək məcburiyyətində qaldı və həftəsonu Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərlərində, eləcə də Abşeron rayonunda sərt karantin rejiminin tətbiqinə dair qərar verdi. Yeri gəlmişkən, qərarda göstərilən tələblərə riayət edilməsinin məcburi və mütləq olduğu vurğulanırdı. Həmçinin xəstəliyin yoluxma hallarının digər şəhər və rayonlarda artacağı təqdirdə sərt tədbirlərin həmin bölgələrdə də təkrarən tətbiq olunacağı diqqətə çatdırılırdı.

Qeyd edim ki, belə həssas günlərdə həkimlərlə yanaşı, daxili işlər orqanları əməkdaşları da qarşıya qoyulan vəzifələri yerinə yetirməklə, vətəndaşların təhlükəsizliyinin və asayişin qorunması üçün əllərindən gələn səyi əsirgəmirlər. Lakin təəssüf ki, son günlər sosial şəbəkələrdə radikal müxalifət nümayəndələri, eləcə də ayrı-ayrı şəxslər Azərbaycan polisi haqqında həqiqəti əks etdirməyən, qərəzli, subyektiv mülahizələrə əsaslanan məlumatlar yayırlar. Onlar vətəndaşlarla polis arasında münasibətlərə xələl gətirmək üçün biləərəkdən təxribat xarakterli yalan informasiyalar paylaşırlar. Amma həmin qüvvələr onu anlamalıdırlar ki, polis orqanları öz xidməti borcunu yerinə yetirir, ictimai asayişi, vətəndaşların təhlükəsizliyini qoruyur, insanların qanunauyğun davranışlarını təmin edirlər.

Ümumiyyətlə, Azərbaycan polisi milli dövlətçiliyimizin möhkəmləndirilməsində, hüquqi dövlət, demokratik cəmiyyət quruculuğunda, ölkəmizdə sabitliyin, əmin-amanlığın təmin olunmasında müstəsna rol oynayaraq özü də bu prosesin içində böyük inkişaf yolu keçib.

Unutmamalıyıq ki, Azərbaycan polisi bizim hər birimizin həyatını qoruyur. Gəlin, biz də öz polisimizin adını qoruyaq. Polis olmaq həm böyük şərəf, həm də məsuliyyətlidir. O, dövlətin, dövlətçiliyin və vətəndaşların keşiyindədir. Ona görə də biz vətəndaş olaraq polisin şərəfli adını və qürurlu fəaliyyətini yüksək qiymətləndirməli, adına ləkə gətirilməsinə imkan verməməliyik.

***Anar MƏMMƏDOV,***
***Milli Məclisin deputatı***



Xalq qəzeti 2020.- 10 iyun.- S.4.